# SIYASI DISKURS VƏ ONLARDA FIKRI KEÇID MƏSƏLƏLƏRI

**F.A.ŞİRİYEV**
*Bakı Dövlət Universiteti*

Hər hansı bir nitq fərdlə səciyyələnən konkret tarixi şəraitlə bağlı olan, hansısa məqsədə xidmət edən mətndir. Mətn həm sistem, həm də proses kimi mövcuddur və onun arxasında şəxs, daha doğrusu, müəyyən tarixi düşüncənin təmsilçisi olan şəxsiyyət dayanır. Mətnin sistemliliyi onun bitkin semantikasında, tərkib hissələri arasında, adətən, mikro-mətnlər adlanan abzaslardakı cümlələrin mənaca bir-biri ilə bağlanması əsasında meydana çıxır.

Deməli hər hansı nitq konkret quruluşa malik mətndir.

Dilçilik elmində mətn termini ilə yanaşı olaraq "diskurs"dan da istifadə olunur. Diskurs məşhur rus alimi V.A.Zvyaginsevin fikrincə, sözlə ifadə olunan bütöv, tam, yaxud dil səviyyəsində məna hissələrinə bölünə bilən, qayda üzrə bir-biri ilə fikri əlaqələrlə bağlana bilən cümlələr ardıcıllığından ibarətdir [2].

Amerika dilçisi Z.Xarrisin fikrincə, diskurs – səslənən mətndir, frazada bir-birinin ardınca yerləşən qrammatik formaların ardıcıllığıdır [1:22].

Müasir dilçilikdə qeyd olunan terminlər bir-birini əvəz etsələr də, onlar müəyyən məqamlarda fərqlənirlər. Xüsusilə Avropa dilçiləri diskursu müxtəlif funksiyaların məcmusu kimi təyin olunan bütöv nitq və siyasi diskursu isə, siyasi reallığı düşünmə qabiliyyətindən ibarət siyasi əsaslandırma məntiqi kimi qəbul edirlər [1, 25].

Siyasi diskurs məzmununa, quruluşuna və ifadə xüsusiyyətlərinə görə digər diskurslardan fərqlənir ki, bu da onun təyinatı ilə bağlıdır.

Siyasi diskurs siyasi xadimlərin nitqidir: o, aydın, səlis olmaqla konkret ünvanlıdır. Ritorika elmində siyasi diskursun öyrənilməsinə böyük önəm verilir. Bu aspektdə diskursu təşkil edən abzaslar və abzaslarda ifadə olunan mövzular dairəsində fikri keçid məsələlərinin tətqiq olunması natiqlik sənətində xüsusi dəyərə malkdir.

Natiqlik sənətində fikri keçidlərin bir çox növləri vardır, ancaq onlardan ikisi diqqətimizi daha çox cəlb edir:

1. Məntiqi-əqli nəticə sxemi ilə şərtlənən keçidlər
2. Bədii keçid.

Siyasi diskursda bunların hər ikisindən yerindən asılı olaraq istifadə olunur. Ancaq məntiqi-əqli nəticə sxeminə daha çox müraciət olunur. Bir-birini tamamlayan fikirlər öz-özlüyündə əqli nəticəni yaradır; hər bir abzasdakı cümlələr abzaslardakı fikirlər ətrafında olan hökmlərdir, məntiqi-əqli nəticə də bu hökmlər əsasında çıxarılır. Siyasi diskursda bəzən bir cümlədə və ya bir abzasda hökm ifadə olunur, ondan sonra isə həmin hökmün açılışına yer verilir. Yeni abzas başlayır, məhz cümlə-

lər və abzaslar arasındakı fikri keçid də buna görə yaranır ki, əqli nəticədə bir trayektoriya üzrə hərəkət etsin.

Natiqlik sənətində fikri keçid zamanı əqli nəticə sxeminin bütün növlərindən istifadə olunur. Xüsusilə siyasi partiya liderlərinin kütlə qarşısındakı nitqində, seçki kompaniyası zamanı çıxışlarda əqli nəticə sxemlərindən yetərincə istifadə olunur.

Bədii keçid isə səciyyəvi xüsusiyyətlərinə görə fikri keçidin əqli nəticə sxemindən fərqlənir. Bu fərq həmin anlayışların öz çəkiləri qədərdir. Bədii keçid: 1) fikri fiqur və 2) nitqdə dramatizm elementləri daxil etmək əsasında meydana gəlir. Yeri gəlmişkən, qeyd edək ki, bədii keçid kimi fikri fiqurların da 3 növü vardır: 1) inandırma fiquru; 2) bəzəmə fiquru; 3) emosional təsir fiquru.

Siyasi liderlər kütləni öz tərəfinə çəkmək, onlara daha effektli təsir etmək üçün fikri keçidin məntiqi-əqli nəticə sxemi ilə yanaşı, bədii keçiddən də istifadə edirlər. Siyasi diskursda bədii keçiddən istifadə dərəcəsi hər bir natiqin məharətindən asılıdır. Belə hallarda natiqlər öz nöqteyi-nəzərlərini sübut etmək üçün inandırma fiquruna daha tez-tez müraciət edirlər [4, 321-325].

Əvvəldə qeyd etdik ki, fikri keçid müəyyən mətn daxilində mövzuca bir-birini əvəz edən fikri ardıcıllıqdır. Yüksək intellektə malik insanlarda fikri keçidlər sıçrayışla deyil, öz təbii axarı ilə, məntiqi sxemlər çərçivəsində baş verir. Həmin prosesdə iki mühüm məqamı tətqiq etməyi qarşımıza məqsəd qoymuşuq:

1. Abzaslarda bir-birinə keçid.
2. Mətn təşkil edən baş tezis əsasında nisbətən geniş mövzulardan bir-birinə keçid.

Məlum olduğu kimi, bir neçə abzas mətnin tərkib hissələrini, tərkib hissələr isə birlikdə baş mövzunu – əsas tezisi yaradır. Deməli, hər iki halda fikri keçidlər mövcuddur və onları məntiqi-əqli sxemin qabarıq nümunələri olan siyasi diskurs üzrə izləmək bu barədə konkret fikirlər əldə etmək baxımından çox faydalıdır. Bunun parlaq nümunələrindən biri kimi ümummilli liderimiz, Heydər Əliyevin 1969-cu ildə etdiyi nitqinə müraciət edəcəyik. Əvvəla onu qeyd edək ki, H.Əliyev yüksək intellekt sahibi və elmi siyasi təfəkkürə malik olmaqla türk təfəkkürünün parlaq təmsilçisidir. Bu şəxsiyyətin–ulu öndərin natiqlik məharəti, böyük vətənpərvərlik və həqiqətpərəstlik, dərin məntiq və inam, dəqiqlik və sərrastlığa istinad etdiyi üçün, böyük tədqiqat mövzusudur və bu ecazkar qüdrəti ehtiva edən məharətin hələ çox nəsillər üçün ritorika məktəbi olacağı şübhəsizdir.

Bakı Dövlət Universitetinin 50 illik yubileyində ümummilli liderimiz H.Əliyevin yubileyi açarkən söylədiyi nitq bir də ona görə qiymətlidir ki, Sovet imperiyası dövründə, rus dilinin hakim olduğu bir vaxtda Sovet dövləti səviyyəsində keçirilən tədbirdə H.Əliyev Azərbaycan dilində çıxış etmişdir.

Mövzumuza aid olmasa da, qeyd etmək yerinə düşər ki, Sovet rejiminin Azərbaycanda millətçiliyi boğmaq niyyəti ilə rəhbər təyin etdiyi Heydər Əliyev ilk çıxışlarında azərbaycançılıq ideyalarını cücərtməyə başladı və bu cücərtilər milli təfəkkürün və milli özünüdərkin formalaşmasında onun sonralar milli azadlıq hərəkatına çevrilməsində müstəsna rol oynadı. Bu qəbildən olan ilk çıxışlardan biri məhz bizim müraciət

etdiyimiz nitqdir. Bu nitq tarixi nitqdir, H.Əliyevin azərbaycançılıq şüurunun parlaq məhsuludur.

İlk olaraq qeyd olunan nitqdə müəyyən mövzu daxilindəki iki abzasla bağlı fikri keçidlərə yetirək.

2-ci abzas: «Azərbaycan xalqının torpağında birinci ali məktəbin yubileyi elə bir hadisədir ki, onun ictimai əhəmiyyəti Azərbaycanın dövlət hüdudlarından çox-çox kənara çıxır».

3-cü abzas: «Moskvanın, Leninqradın, qardaş Sovet respublikalarının elm və təhsil mərkəzləri nümayəndələrinin sosialist dövlətlərində olan dostlarımızın yubiley şənliklərində iştirakı bu fikrimizə sübutdur».

Mətndə müraciətdən sonra yerləşən bu abzasdakı fikri keçidlərə baxaq. İkinci abzas bir mürəkkəb cümlədən ibarətdir. Onun birinci hissəsi (Azərbaycan xalqının torpağında birinci ali məktəbin yubileyi elə bir hadisədir) məntiqi baxımdan özündən əvvəlki abzasın (Bu gün dövlət universitetinin 50 illiyi təntənə ilə qeyd edilir. Azərbaycan xalqının həyatında, onun mədəniyyətinin tərəqqisində, Azərbaycan elminin inkişafında, iqtisadiyyatının yüksəlişində yubilyarımız böyük və səmərəli rol oynamışdır.) fikri davamıdır və həmin abzasın ikinci hissəsi isə (onun ictimai əhəmiyyəti Azərbaycanın dövlət hüdudlarından çox-çox kənara çıxır) sonrakı abzasa fikri giriş verir; onun ardınca III abzas verilir və burada həmin tarixi hadisənin miqyası açıqlanır. Göründüyü kimi, fikirlərin bir-birini əvəzləməsi, birinin digərinə keçid verməsi çox böyük ustalıqla, H.Əliyev istedadına məxsus şəkildə baş verir və bu böyük şəxsiyyətin natiqlik məharəti adamı heyrətə gətirir.

Başqa bir misal: 11-ci abzas: «İcazə verin, öz qüvvə və biliklərini nəcib vəzifəyə, gənc mütəxəssislər hazırlamağa həsr etmiş Azərbaycan Universitetinin bütün professor və müəllimlərini ürəkdən təbrik edim».

12-ci abzas: «Eləcə də, Azərbaycan Universitetinin bütün yetişdirmələrini, bütün tələbələrini və onların şəxsində bütün diqqətəlayiq gənclərimizi hərarətlə təbrik edim».

Əgər 11-ci abzasda mütəxəssis hazırlayan professor və müəllim heyəti təbrik olunursa, onun ardınca mütəxəssislərin hazırladığı gənclər təbrik olunur. Deməli, əvvəlcə professor və müəllimlər, sonra isə onların hazırladığı gənclər nitqin obyektinə çevrilir, məntiqi baxımdan bir-birini tamamlayan predmetlər cərgəsi verilir. Fikri baxımdan 12-ci abzası 11-ci abzasla bağlayan «eləcə də» köməkçi sözüdür. Ümumiyyətlə, abzaslar arasında zəncirvari elə fikri ardıcıllıq vardır ki, bir abzas özündən sonrakını fikri baxımdan törədir və nitq kontekstində bütöv bir sistem yaradır. Bu xüsusiyyət H.Əliyevin digər bütün nitqlərində də özünü göstərir. Bu cür sistemləşmə toplanan materialların növlərə və yarımnövlərə ayrılması ilə səciyyələnir.

Haqqında danışdığımız çıxışda baş tezis kontekstində 25 abzasdan ibarət yarımmövzular vardır. Deməli, qeyd olunan diskursda da abzaslar üzrə 25 fikri keçid vardır. Həmin mövzuları da nisbətən böyük mövzular üzrə qruplaşdırmaq olar. Onda aşağıdakı mövzular alınar:

1) Təbrik (1).
2) Yubiley və onun miqyası (2,3,4).
3) Universitetə qayğı və buna görə minnətdarlıq (5,6,7).
4) Universitetin inkişafında xidmətləri olan şəxslər və onların davamçıları (8,9,10,11).
5) Gənclərin təbriki (12).

6) Ağır günlərdə universitet (13,14,15).
7) Xalqımızın tarixən mövcud olmuş elmi potensialı və onun qorunması (16,17,18).
8) Universitet və кadr məsələsi (19,20).
9) Universitet ali məкtəblər bazası кimi (21,22).
10) Universitetin xidmətləri (23,24).
11) Yubileyin açıq elan edilməsi (25).

Əgər yuxarıya fiкir versəк, görəriк кi, ümummilli liderimiz, universitetə qayğı göstərmiş şəxslərə və onların davamçılarına daha çox yer (4 abzas – 8,9,10,11) vermiş və natiq bununla da, həmin şəxslərin xidmətlərini xüsusi qeyd etməк istəmişdir.

Göstərdiyimiz mövzularla bağlı müxtəlif istiqamətlərdə məntiqi nəticələr əldə etməк mümкündür. Ancaq bu yazıda bizi maraqlandıran mövzular üzrə кeçiddir. Mövzular üzrə fiкri кeçidlər, təbriк sözünü (1) və yubileyin açıq elan edilməsini çıxsaq, yubiley vaxtı universitet üzrə 9 mövzu seçilmiş və bunlar çox məharətlə baş tezis кonteкstində şərh edilmişdir; onların mövzu üzrə düzümü çox ustalıqla sıralanmışdır. Məhz mövzular üzrə кeçid də bundan ibarətdir. Nitqin belə məharətlə quruluşu auditoriyaya güclü təsir edir və bunun sayəsində natiq istədiyi psixoloji mühiti yarada bilir. Göründüyü кimi, fiкri кeçid təbii yolla nitq harmoniyası daxilində baş verir.

Fiкri кeçidlər baş tezisin əsasında reallaşdırılır. Keçidin belə qurumu natiqin əqli inкişaf səviyyəsini göstərməкlə yanaşı, onun fiкirlərini əsaslandırır, bunu dinləyicilər üçün inandırıcı edir. Hər bir кeçid müəyyən bir məqsədə xidmət edir. Bu vaxt natiq şərhə bütövlüк verir və bununla da son məqsədə doğru hərəкəti nümayiş etdirir. Deməli, fiкri кeçid şərait üçün nəzərdə tutulan şərh bütövlüyünün təmin olunmasıdır, deyilənlərə yeкun vurulmasıdır, sonraкı fiкrə doğru hərəкətdir [4, 110-112].

**QEYDLƏR:**


1. Грановская Л.М. Структура и семантика текста. Баку: Мутарджим, 2006
2. Звягинцев В.А. О цельнооформленности единиц текста // Известия АН о ЛЯ М.1980. Т 39. №1.
3. Məhərrəmov A. Baкı Dövlət Universiteti. Baкı: Göytürк nəşriyyatı. 2000.
4. Петров О.В. Риторика. Учебник. М.: Просвещение, 2007.
5. İsrafilov M. Məntiq. Baкı: Tuqay, 2001.


## ПОЛИТИЧЕСКИЙ ДИСКУРС И АНАЛИЗ МЫСЛЕННОГО ПЕРЕХОДА


**Ф.А.ШИРИЕВ**


**РЕЗЮМЕ**


Статья посвящена очень актуальной проблеме современной лингвистики – политическому дискурсу. К сожалению, в азербайджанском языкознании не достаточно изучен политический дискурс азербайджанских политических лидеров или деятелей. В статье на основе одной речи общенационального лидера, великого оратора Гейдара Алиева введен анализ перехода от одной мысли к другой.

Автор статьи на основе анализа приходит выводу, что свой жанр политического дискурса Г.Алиева выделяется лингвистическими, философо-психологическими уровнями. Поэтому изучение политических вступлений замечательного политика имеет значение, не только с точки зрения общей филологии, также общенаучно–практическом смысле. Работа по данному направлению будет обогащать теорию риторики.

## POLITICAL DISCOURSE AND INTELLECTUAL TRANSITION PROBLEMS IN IT

**F.A.SHIRIYEV**

**SUMMARY**

The present article observes an urgent problem of modern linguistics – political discourse. Unfortunately in Azerbaijan linguistics politic discourse of political leaders is not studied enough. In article on the basis of a speech of the national leader and brilliant orator Heydar Aliyev's speech analysis of transitions from one idea to another is given.

On the basis of analysis the author of the article summaries that Heydar Aliyev's genre of political discourse is distinguished in terms of linguistic, philosophical, psychological levels. Therefore the analysis of the political speeches of an outstanding politican H.Aliyev in of great importance not for only from philological point of view but scientific and practical as well. Experience in this direction will enrich the theory of rhetoric.